

*Mehdi ZAHİD*

## TƏNHA PALID

Sən anadan elə tənha doğuldun,
Uzanmadı ehtiyaca əllərin.
Nə kimsənin qapısından qovuldun,
Nə də qaçdın qabağından sellərin.

Palıd olub quzeydəcə boy atdın
Küləklərin qamçısına dözərək.
Ürəyində hey paxıllıq oyatdın
Yüz nadanı, öz zirvəndən süzərək.

Buludlar da dolandılar başına,
Ələdilər leysanları üstünə.
Üz tutmadın yenə də göz yaşına,
Qalxan oldu sinən daim pis günə.

İldırımlar at oynadıb bağırdı,
Külə döndü budaqların bircə an.
Ucalıqdan nələr gəldi başına,
Çıxarmadın palıdlığı yadından.

## AĞACDƏLƏN

Ağacdələn, anlayıram mən səni;
Ürəyimdən keçənləri deyirsən.
O dimdiyin ah-nalənin məskəni,
Ağacı yox, sən dərdini yeyirsən.

Varmı sənin harayını anlayan?
Sanırlar ki, nağaradır, çalırsan.

Bu dərd üçün bir kimsəni danlayan -
Kimdir axı-belə haray salırsan?

Yoxa çıxıb palıdların kölgəsi,
Cökə hanı arıların balına?
Meşə adlı xatirədir təbiət,
Qan ağlayır özünün bu halına.

Yada düşür Xocalımız bu anda,
"Ermənilər" bura hardan gəliblər?
Topxanada göz oxşayan meşəni,
Sən gəlməmiş böyrü üstə səriblər.

Ağacdələn, çox keçməz ki, çalmağa
Qalmayacaq bircə dənə "nağara"
Qəlbimizə bir həyəcan salmağa
Qonacaqsan bəs sən hansı budağa?

## ANAMIN ADINI QOYMUŞAM SƏNƏ...

*Sədayə üçün*

Anamın adını qoymuşam sənə,
Bir daha anasız qalmamaq üçün.
İllərlə qəlbimi yandırıb-yaxan
O qəmli havanı çalmamaq üçün.

Sənsiz bulud tutan bir asimanam,
İstədim səni də öz anam sanam,
Anamın iyini, a körpə anam,
Başqa bir kimsədən almamaq üçün.

Gəl isin sinəmdə ürək közümlə,
Oxşayım bal kimi şirin sözümlə,
Gecələr qalanda özüm özümlə,
Özgə bir xəyala dalmamaq üçün.

Həsrətdir ürəyim bircə arzuya;
Dönməsin Mehdi ta yetim quzuya.
Axasan qəlbimə dönərək suya,
Şirin arzularım solmamaq üçün.

## EY KÜLƏK

Ey külək, minmisən bir kəhər atı,
Gah dağdır məskənin, gah da ki dərə.
Qəlbində inləyir qəmli bayatı,
Çırpırsan özünü ağ ləpələrə.



Pəncərə çırpırsan, qapı açırsan,
Açılmır qapısı bir qəlbin sənə.
Soruşan olubmu hara qaçırsan,
Tələsmə, söylə bir dərdini mənə?

Bircə kəs çəkdimi başına sığal,
Hamının başına sığal çəkirsən.
Limanı tapmayan qərib gəmisən,
Torpağın üstündə avar çəkirsən.

İncimə küləyim, bizim qəlbimiz
Düşübdür qüssədən elə bir hala,
İnana bilmirəm silinə bu iz,
Ya da ki, qəmimiz azca azala.

Gecənin özünün nə işığı var
Kiminsə yoluna bir az çiləsin.
Yorma gəl özünü, dincəl bir ovur,
Axtardığın özü yanına gəlsin.

## QƏLƏMİM, DƏFTƏRİM VƏ MƏN

Bir qələmim, bir dəftərim, bir də mən
Keçiririk gecələri baş-başa.
Qəm yağışı ələnsə də qəlbimdən,
"İslanmaqdan" düşmürük heç təlaşa.

Taleyimə əsib dəli küləklər,
Qəmlə dolu bulud olub ürəyim.
Solub neçə qönçə arzu-diləklər,
Boğulubdur bələyində diləyim

"Bulud"umun qəm yağışı sellənib,
Çay-qələmim dərhal çəkib canına.
Ağuşunda "çayın" tezcə lillənib,
Yol başlayıb "qəm düzü"nün yanına.

Bu dünyanın hər dərdini, qəmini
Təşnə olub dayanmadan içirik.
Ürəkdəki qəm adlı bir zəmini
Üçümüz də gecə-gündüz biçirik.

Hər qələmin, hər dəftərin, hər "mən"in
İşi deyil qəm-qüssəyə bürünmək.
Yollar kəsən hər dumanın, hər çənin
Arasından çıxıb məğrur görünmək.

## ÖYÜLƏN OLMADIM

Yüz acı küləyə sinəmi gərdim,
Əyilən olmadım, əyilmərəm də.
Süfrəyə düzülmüş naz-nemət kimi
Yeyilən olmadım, yeyilmərəm də.

Söykədim arxamı həqiqətlərə,
Eşitdi sözümü hər dağ, hər dərə.
Üz-üzə, göz-gözə heç bircə kərə
Söyülən olmadım, söyülmərəm də.

Basıldı sinəmə neçə-neçə köz,
Səbrimin başını sığalladım: döz,
Ömrümdə bir dəfə adıma pis söz
Deyilən olmadım, deyilmərəm də.

Görmədim haqsızı önümdə dinə,
Bəlkə də, gəlmədi sözüm eyninə,
Özündən razı bir harın əyninə
Geyilən olmadım, geyilmərəm də.

Sükutla deyildi yaxşı əməlim,
Arxalı olmayıb çünki əzəlim,
Zəmanə elədir, Mehdi müəllim,
Öyülən olmadım, öyülmərəm də.

*Şəki*

**OXUCULARIN NƏZƏRİNƏ!**
**2019-cu İL ÜÇÜN**
**“AZƏRBAYCAN”**
**jurnalına abunə yazılışı davam edir.**
**“AZƏRBAYCAN”**
**jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiymət 18 manatdır.**
**İNDEKS: 76300**